Azərbaycan Respublikasının Prezidenti
yanında Ali Attestasiya Komissiyası
Rəyasət Heyətinin 29.01.2021-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir.

# Xüsusi karantin rejimi dövründə dissertasiya şuralarında müdafiələrin təşkili və keçirilməsinə dair

# TƏLƏBLƏR

## 1. Ümumi müddəalar

1.1. Bu Tələblər Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVİD-19) profilaktikasına dair metodiki göstərişlər" əsasında hazırlanmışdır və xüsusi karantin rejimi dövründə koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə sanitariya-epidemioloji və profilaktik tədbirlərin həyata keçirilməsi təmin edilməklə dissertasiya şuralarında müdafiələrin (bundan sonra – müdafiə) təşkili və keçirilməsinə dair tələbləri müəyyən edir.

1.2. Xüsusi karantin rejimi dövründə müdafiələr bu Tələblərə riayət olunmaqla Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (bundan sonra – Komissiya) Rəyasət Heyəti tərəfindən təsdiq edilmiş "Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat"la nəzərdə tutulan müddəalar əsasında həyata keçirilir.

1.3. Xüsusi karantin rejimi dövründə iddiaçılar müdafiənin bu Tələblərlə nəzərdə tutulan qaydada təşkil edilməsi məqsədilə dissertasiya şurasına yazılı müraciət etməlidirlər.

1.4. Xüsusi karantin rejimi dövründə müdafiələrin təşkili və keçirilməsi ilə bağlı tələb olunan xərclər dissertasiya şurasının fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi hesabına təmin edilir.

## 2. Müdafiələrin təşkili və keçirilməsinə dair tələblər

2.1. Müdafiə dissertasiya şurası üzvlərinin və digər şəxslərin müdafiənin keçiriləcəyi otaqda (zalda) qismən əyani iştirakları və eyni zamanda distant (məsafədən) qoşulmaları təmin olunmaqla təşkil edilir.

2.2. Müdafiədə dissertasiya şurası üzvlərinin və digər şəxslərin əyani iştirakları zamanı aşağıdakı tələblərə riayət edilməlidir:

2.2.1. müdafiədə iştirak edənlərin yaşı 65-dən yuxarı olmamalı;

2.2.2. müdafiənin keçiriləcəyi otaqda (zalda) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən xüsusi karantin rejimi dövründə insanların bir yerə toplaşmaqla bağlı müəyyən edilən say məhdudiyyəti gözlənilməli;

2.2.3. müdafiə zamanı elmi katibin, iddiaçının, videoçəkiliş aparan şəxsin müdafiə keçiriləcək otaqda (zalda) əyani iştirakları mütləq təmin edilməli;

2.2.4. müdafiədən iki gün əvvəl otaq (zal) dezinfeksiya edilməli və müdafiə təyin olunan günədək həmin otağa (zala) giriş qadağan edilməli;

2.2.5. müdafiə keçiriləcək otağın (zalın) girişində, dəhlizdə əl dezinfektantları üçün dispenserlər quraşdırılmalı;

2.2.6. müdafiədən öncə və gedişatı ərzində otaq (zal) havalandırılmalı;

2.2.7. müdafiədə iştirak edən hər bir şəxs otağa (zala) daxil olduğu andan mütləq şəkildə əllərini dezinfeksiyaedici məhlulla təmizləməli və termometriya icra edilməli;

2.2.8. otaq (zal) tibbi maskalarla təchiz edilməli;

2.2.9. müdafiədə iştirak edən hər bir şəxsin otağa (zala) daxil olduğu andan tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) mütləq istifadə etməsi tələb edilməli;

2.2.10. otaqda (zalda) fərdi qoruyucu vasitələrinin atılması üçün müvafiq tullantı qabları yerləşdirilməli;

2.2.11. müdafiədə iştirak edən şəxslərin yaxın təmasına (əllə görüşmə və digər yaxın təmas) yol verilməməli;

2.2.12. dəftərxana ləvazimatları (qələm, karandaş və s.) ortaq istifadə edilməməli;

2.2.13. soyuqdəymə və qripə bənzər simptomlar müşahidə edilən şəxslərin müdafiədə əyani iştiraklarına icazə verilməməli;

2.2.14. müdafiədə əyani iştirak edən şəxslər arasında sosial məsafə (2 m) qorunmalı;

2.2.15. müdafiə zamanı iddiaçı və dissertasiya şurasının hər bir üzvü veb-kamera ilə təchiz olunmuş kompüterlə təmin edilməli və müdafiənin sonuna qədər kameralar söndürülməməli.

2.3. Bu Tələblərin 2.2-ci bəndində göstərilən şərtlər gözlənilməklə müdafiəyə sədrlik edən şəxs (sədr və ya sədr müavini), müdafiə keçirilən müvafiq ixtisas üzrə dissertasiya şurası üzvləri və müdafiənin distant (məsafədən) təşkili ilə bağlı texniki məsələlərin həllinə məsul olan şəxs müdafiə keçiriləcək otaqda (zalda) əyani iştirak edə bilər.

2.4. Müdafiədə dissertasiya şurası üzvlərinin və digər şəxslərin distant (məsafədən) qoşulmaları zamanı aşağıdakı tələblərə riayət edilməlidir:

2.4.1. “Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat”ın 5.1-ci bəndinə müvafiq olaraq dissertasiya şurasının iclasının səlahiyyətli sayılması üçün müdafiədə əyani formada iştirak etməyən zəruri sayda üzvlərin, rəsmi opponentlərin, habelə müdafiədə iştirak etmək istəyini bildirən elmi rəhbərin (elmi məsləhətçinin) distant (məsafədən) iclasa qoşulması təmin edilməli;

2.4.2. dissertasiya şurasının üzvü olmayan digər şəxslərin prosesi distant (məsafədən) formada izləməsinə və sualların verilməsinə şərait yaradılmalı.

2.5. Müdafiə zamanı müzakirələr elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin dəstəklədiyi müvafiq elektron platformaların tətbiqi ilə (Microsoft Teams, Zoom Meetings, Google Meet və s.) keçirilir və müdafiənin gedişatının videoqeydi aparılır.

2.6. Müdafiənin keçiriləcəyi elektron platformanın istinad mənbəyi (linki) elmi katib tərəfindən müdafiəyə azı 2 (iki) gün qalmış iddiaçının, dissertasiya şurası üzvlərinin, rəsmi opponentlərin və elmi rəhbərin (elmi məsləhətçinin) elektron ünvanına göndərilir.

2.7. Dissertasiya şurasının üzvü olmayan digər şəxslərin prosesi distant (məsafədən) formada izləməsini və sualların verilməsini təmin etmək məqsədilə elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəsmi internet saytında müdafiənin keçiriləcəyi elektron platformanın istinad mənbəyi (linki) yerləşdirilir.

2.8. Müdafiə zamanı iclasda distant (məsafədən) iştirak edən üzvlərin iştirakını təsdiq etmək üçün “İştiraketmə vərəqi”ndə (“Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat”a Əlavə 1.7) “İclasda iştirakı (imza)” xanasında elmi katib tərəfindən “Distant” sözü yazılır.

2.9. Müdafiə zamanı iclasa distant (məsafədən) qoşulan üzvlərdən hər hansı biri ilə audio-vizual əlaqənin kəsilməsi və ya ciddi texniki nasazlığın yaranması səbəbindən həmin üzvün öz fikrini dissertasiya şurasının diqqətinə çatdırması mümkün olmadıqda, nasazlıq aradan qaldırılana kimi texniki fasilə elan edilə bilər.

2.10. Dissertasiya şurasında müdafiə bitdikdən sonra gizli səsvermə elektron qaydada Komissiyanın rəsmi internet saytında keçirilir.

2.11. Gizli səsvermədə iştirak etmək məqsədilə Komissiya tərəfindən hər bir dissertasiya şurası üzvünün “İstifadəçi adı” (Login) və “Şifrə”si (Parol) möhürlənmiş zərfdə dissertasiya şuralarının elmi katiblərinə təqdim edilir. Elmi katiblər möhürlənmiş zərfləri müvafiq dissertasiya şuralarının hər bir üzvünə təqdim edirlər. “İstifadəçi adı” (Login) və “Şifrə” (Parol) heç bir halda paylaşılmır və məxfiliyi qorunur.

2.12. Müdafiədən sonra müdafiənin videoçəkilişi və bu Tələblərin 2.5-ci bəndi ilə nəzərdə tutulan videoqeydi elektron daşıyıcıda iddiaçının attestasiya sənədlərinə əlavə olunaraq Komissiyaya təqdim edilir.

## 3. Dissertasiyanın müdaifəsi bitdikdən sonra elektron

**səsvermənin keçirilməsi**

3.1. Dissertasiyanın müdafiəsi bitdikdən sonra “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin 5.53-cü bəndinin tələbləri nəzərə alınmaqla elektron gizli səsvermə aşağıdakı qaydada keçirilir:

3.1.1. elmi katib elektron səsverməni aktivləşdirdikdən sonra dissertasiya şurasının hər bir üzvü Komissiyanın rəsmi internet saytında “Dissertasiya şuraları” menyusundan “Elektron səsvermə” bölməsinə daxil olaraq şəxsi “İstifadəçi adı” (Login) və “Şifrə” (Parol) vasitəsilə səsvermə platformasına keçir;

3.1.2. dissertasiya şurasının üzvü açılan səsvermə platformasında müdafiənin keçirildiyi müvafiq şuranın qeydiyyat nömrəsini seçir;

3.1.3. növbəti pəncərədə müvafiq iddiaçının adı, atasının adı, soyadı, dissertasiya mövzusu, ixtisas şifri və adı, elm sahəsinin adı və iddia edilən elmi dərəcə göstərilən cədvəldə “Səs ver” düyməsini seçməklə səsvermədə iştirak edir;

3.1.4. səsvermə zamanı monitorda ardıcıl açılan aşağıdakı pəncərələrdə müvafiq əməliyyatlar həyata keçirilir:



3.1.5. Səsvermədə iştirak edən şura üzvlərinin səs verdiklərindən əmin olduqdan sonra elmi katib “Səsvermə bitdi” düyməsini seçir və səsvermə bitmiş hesab olunur.

3.1.6. Dissertasiya şurasının üzvləri elektron gizli səsvermədə iştirak etdikdən sonra səsvermənin nəticəsi monitorda aşağıdakı kimi əks olunur:

**Pəncərə 5.**

| |
|---|
| Elektron gizli səsvermədə müdafiənin keçirildiyi ixtisas üzrə dissertasiya şurası üzvlərindən _______ nəfər iştirak etmişdir.<br>(sayı)<br><br>Müdafiənin keçirildiyi ixtisas üzrə şura üzvlərinin gizli səsverməsinin nəticəsi: ____________________<br>(müsbət və ya mənfi)<br><br>Lehinə ________________ səs<br>(sayı)<br>Əleyhinə ______________ səs<br>(sayı) |

| |
|---|
| Elektron gizli səsvermədə dissertasiya şurasının digər üzvlərindən _______ nəfər iştirak<br>(sayı)<br>etmişdir.<br><br>Dissertasiya şurasının digər üzvlərinin gizli səsverməsinin nəticəsi: ____________________<br>(müsbət və ya mənfi)<br><br>Lehinə ________________ səs<br>(sayı)<br>Əleyhinə ______________ səs<br>(sayı) |

| |
|---|
| Dissertasiya şurasının üzvlərinin elektron gizli səsverməsinin yekun nəticəsi:<br><br>İddiaçı __________________________ __________________________ mövzusunda<br>(iddiaçının adı, atasının adı, soyadı) (dissertasiyanın mövzusu)<br><br>_________________________ ixtisasında _______________________ elm sahəsi üzrə<br>(ixtisasın şifri və adı) (elm sahəsinin adı)<br><br>____________________________ elmi dərəcəsi verilməsi üçün gizli səsvermənin nəticəsi<br>(fəlsəfə doktoru və ya elmlər doktoru)<br><br>___________________ hesab edilir.<br>(müsbət və ya mənfi) |

3.2. Elektron səsvermə zamanı hər hansı texniki və ya digər səbəbdən səsvermənin başa çatdırılıması mümkün olmadıqda elmi katib “Səsverməni dayandır” düyməsini seçməklə səsverməni dayandırır və bu barədə Komissiyaya məlumat verir. Müdafiənin keçirildiyi gün müvafiq nasazlıq aradan qaldırıldıqdan sonra səsvermə yenidən keçirilir.

3.3. Elektron səsvermənin monitorda əks olunan nəticəsi çap edilərək hesablama komissiyasının protokoluna (“Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat”a Əlavə 1.9) əlavə edilir.

3.4. Elektron səsvermənin nəticəsi barədə məlumatlar Komissiyanın rəsmi internet saytında arxivləşdirilərək saxlanılır.